BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2007

# CİNAYƏT İŞİ BAŞLAMA İLƏ ƏLAQƏDAR PROKURORUN CİNAYƏT İŞİ ÜZRƏ APARILAN TƏHQİQATA VƏ İBTİDAİ İSTİNTAQA NƏZARƏTİ MƏSƏLƏLƏRİ

**Ə.Ə.QASIMOV**
*Bakı Dövlət Universiteti*

*Məqalədə cinayətkarlığın tədqiqinin ilkin mərhələləri ilə əlaqədar məsələlər nəzərdən keçirilir. Burada cinayət işinin qaldırılması problemləri, onların nəzəri əsasları, əhəmiyyəti təhlil edilir.*

Cinayətkarlığın sayının və səviyyəsinin artması tendensiyası onu nəinki əhalinin nəzərində, həmçinin siyasətçilərin də narahatlığına səbəb olan təhlükəli sosial hadisəyə çevirir. Bu səbəbdən cinayətlərin müəyyən edilməsi, qarşısının alınması, onu törədənlərə qarşı qanunla müəyyən edilmiş təsir tədbirlərinin tətbiq edilməsi üzrə fəaliyyətin təşkili və effektivliyi dövlət hakimiyyətinin bütün səviyyələrinin diqqət obyektinə çevrilmişdir. Buna misal olaraq, Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında» fərmanını göstərmək olar (1).

Müasir dövrdə Azərbaycan Respublikasında prokurorluğun bu istiqamətdə fəaliyyətinin yeni qanunvericilik baxımından tədqiq olunması istiqamətində kifayət qədər tədqiqat işləri aparılmamışdır. Azərbaycan Respublikasının «Prokurorluq» haqqında Qanununda prokuror fəaliyyətinin kifayət qədər işıqlandırılması həmin qarşıda duran vəzifələrin layiqincə icra olunmasını tələb edir (2). Lakin həmin qanunun icrası mexanizmi bəzi hallarda günün tələblərindən geri qalır, prokuror fəaliyyətinin səlahiyyət sistemini kifayət qədər təmin edə bilmir.

Cinayət prosesində prokuror nəzarəti institutunun[1] əsas məqsədi qanunlara əməl edilməsini təmin etmək, vətəndaşların hüquq və azadlıqlarını, qanuni maraqlarını əsassız təzyiqlərdən qorumaq, cinayətkarlıqla qətiyyətlə mübarizə aparılması üçün şərait yaratmaqdır. Prokuror nəzarəti dövlət fəaliyyətinin cinayətkarlıqla mübarizə, cinayət işlərinin araşdırılması kimi məsuliyyətli sahələrində qanunçuluq rejiminin möhkəmləndirilməsinə imkan yaradır.

Bu isə bilavasitə ölkədə qanunçulugun ümumi vəziyyətində təzahür edərək qanunların nüfuzunu qaldırır, vətəndaşların dövlətə və onun orqanlarına inamını, etibarını artırır, ümumiyyətlə dövlətçiliyin möhkəmlənməsinə xidmət edir.

[1] Burada və bundan sonrakı səhifələrdə prokuror nəzarəti deyəndə biz «prokurorun ibtidai istintaqa prosessual rəhbərliyinin həyata keçirilməsini» nəzərdə tuturuq.

Cinayət prosesində qanunların dəqiq və düzgün həyata keçirilməsinə nəzarət ali dövlət orqanlarının müstəsna səlahiyyəti olan qanunvericilik fəaliyyəti ilə sıx bağlıdır. Qanunların ümumi icbari xarakteri yalnız qanunverici orqanların yüksək nüfuzu ilə deyil, həm də onların icra edilməsinə nəzarətlə təmin edilir. Hüquq normalarını formalaşdıran qanunverici orqan, eyni zamanda onların tətbiq və icra edilməsi mexanizmlərini də müəyyən edir ki, bunların da arasında əsas yeri həmin normaların həyata keçirilməsinə nəzarət funksiyası tutur.

İbtidai istintaq zamanı nəzarət funksiyasını həyata keçirən prokuror yalnız qanunda müəyyən edilmiş qaydalara əsaslanmalıdır. Nəzarət formaları «Prokuror haqqında» Qanun, Cinayət-Prosessual Məcəllə və Baş Prokurorun əmrləri ilə müəyyən edilir.

V.M.Savitski təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətində qanunun tələblərinə əməl olunmasına prokuror nəzarəti formalarının aşağıda göstərilən təsnifatını təklif edir: 1) qanun pozuntularının qarşısının alınması və müəyyən edilməsi; 2) qanun pozuntularının aradan qaldırılması formaları (3,155). Qeyd edilməlidir ki, bu təsnifat şərtidir. A.İ.Dolqova nəzarət formalarının fərqli təsnifatını irəli sürür: 1) qanun pozuntularının qarşısının alınması; 2) pozuntuların müəyyən edilməsi; 3) qanun pozuntusuna reaksiya verilməsi (4, 51).

Göstərilən formalardan aşağıda təqdim ediləni fikrimizcə, prokurorun nəzarət səlahiyyətlərin həyata keçirmək üzrə fəaliyyətinin daha düzgün əks etdirir: 1) prokurorun müəyyən prosessual hərəkətləri həyata keçirməsi üçün müstəntiqə sanksiya hüququ verilməsi; 2) prokurorun müəyyən qərarlar qəbul elmək üçün müstəntiqə razılıq verməsi; 3) iş üzrə həlledici əhəmiyyəti olan konkret prosessual qərarın prokuror tərəfindən təsdiq edilməsi (5, 99). A.X.Kişiyev də prokuror nəzarəti formalarının məhz bu təsnifatını digərləri ilə müqayisədə müasir dövr üçün daha məqbul edir (6, 258).

Müasir cinayət prosesində məhkəmə araşdırması mərhələsi həlledici yer tutur. Prosesin bu mərhələsində məhkəmə cinayətin səbəblərini və baş verdiyi şəraiti hərtərəfli təhqiq etməli, təqsirləndirilənin şəxsiyyətini, təqsirini ağırlaşdıran və yüngülləşdirən halları, araşdırılan hadisəni gerçəkdə olduğu kimi müəyyən etməlidir. Lakin bu mərhələdən əvvəl sübutlar toplanmalı və təsbit edilməli, təqsirləndirilən şəxs müəyyən olunaraq aşkarlanmalı, bir sözlə, məhkəmədə işin daha keyfiyyətlə və operativ araşdırılması üçün şərait yaradılmalıdır.

Bu vəzifələrin yerinə yetirilməsi isə öz funksiyalarını prokurorun prosessual rəhbərliyi altında həyata keçirən təhqiqat və ibtidai istintaq orqanlarına həvalə edilmişdir. Onların fəaliyyəti məhkəməyə qədərki icraata aid olduğuna görə yardımçı, ilkin xarakterli olur.

Ümumi qaydaya görə cinayət işi başlanması mərhələsinin hüdudları bir tərəfdən cinayət haqqında məlumatın (ərizənin) daxil olması, digər tərəfdən səlahiyyətli orqan tərəfindən cinayət işinin başlanması və ya rədd edilməsi haqqında qərarın qəbul olunması ilə müəyyən edilir.

Bu hüdudlar arasında cinayət əlamatlərinin mövcud olub-olmamasını müəyyən etmək məqsədi güdən cinayət-prosessual fəaliyyət yer tutur.

Keçmiş sovet respublikalarının, o cümlədən Azərbaycanın SSR-nin prosessual qanunvericiliyində təhqiqatla ibtidai istintaq arasında

sərhəd şərti xarakter daşıyırdı. 60-cı illərin əvvəllərində qəbul edilmiş bir sıra qərarlar sayəsində təhqiqat orqanlarının fəaliyyət dairəsi xeyli daraldı. Əvvələr bütövlükdə təhqiqat orqanları tərəfindən araşdırılan bir çox işlər üzrə ibtidai istintaqın aparılması məcburi sayılmağa başladı.

Təhqiqat sözünün artıq etimologiyası onun ibtidai araşdırmanın ilkin mərhələsi, olduğunu göstərir. Bu mərhələdə səlahiyyətli orqanlar cinayət hadisəsinin, onun izlərinin müəyyən edilməsi, cinayətkarın axtarılması məqsədilə təxirəsalınmaz əməliyyat və istintaq hərəkətləri həyata keçirirlər.

Gələcək məhkəmə icraatının nəticəsi də bu mərhələnin əldə etdiyi uğurlardan asılıdır. Bu baxımdan cinayət prosesində təhqiqat institutunun olması zəruridir. Cinayətkarlığa qarşı mübarizənin effektivliyi müvafiq orqanların əhaliyə yaxınlığından çox asılıdır.

İctimai asayişi və təhlükəsizliyi təmin edən polis orqanlarının mobilliyi və operativliyi onlara hazırlanan və törədilən cinayətlər haqqında vaxtında və dəqiq məlumat əldə etməyə imkan verir. Bundan başqa təhqiqatın xüsusi prosessual fəaliyyət kimi ayrılması ibtidai araşdırma prosesində vəzifələrin daha rasional bölünməsinə, müstəntiqin təxirəsalınmaz axtarış hərəkətlərindən azad olaraq, vaxtına və qüvvəsinə qənaət etməyinə şərait yaradır. İbtidai istintaq orqanları cinayətləri tezliklə və bütünlüklə açmaqla kifayətlənməməlidirlər. Cinayətlərin qarşısını almaq, cinayətin törədilməsinə kömək edən şəraiti və bunun səbəbini aşkar edib, aradan qaldırmaq və bu sahədə geniş izahedici iş aparmaq həmin orqanların ümdə vəzifələrindəndir (7, 8).

İstintaq orqanlarının konkret vəzifələrini aşağıdakı kimi formalaşdırmaq olar:

- cinayət hadisəsinin baş verməsini müəyyən edən sübutların axtarılıb tapılması, təsbit edilməsi və yoxlanılması;
- cinayət törətməkdə təqsirli (şübhəli) bilinən şəxslərin müəyyən olunaraq ifşa edilməsi;
- cinayət törətməkdə təqsirli (şübhəli) bilinən şəxslərin cinayət meylli fəaliyyətini davam etdirməsinə mane olmaq;
- cinayət törətməkdə təqsirli (şübhəli) bilinən şəxslərin cəzadan yayınmasının qarşısının alınması;
- cinayətin konkret səbəblərini, törədildiyi şəraiti müəyyən edərək, aradan qaldırılmasına nail olmaq;
- günahsız şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının, həbsinin və hüquqlarının digər formalarda məhdudlaşdırılmasının qarşısının alınması (8, 23).

İkincisi, təhqiqat orqanlarının tam həcmdə araşdırmadan azad edilməsi, müəyyən kateqoriyadan olan cinayət işlərinin istintaqının keyfiyyətinin artmasına, əməliyyat - axtarış və prosessual fəaliyyətin bir əldə cəm olunmasının qarşısının alınmasına şərait yaradır (9, 60-61).

Bir mülahizəni də diqqətə çatdırmalıyıq ki, ibtidai istintaqın bütün cinayət işləri üçün məcburi olması araşdırmaya prokuror nəzarətitnin prosessual qanunvericiliklə müəyyən edilmiş vahid formalarına daha çox uyğun gəlir (9, 59-60).

Təhqiqatın və ibtidai istintaqın hüquqi mahiyyəti və nisbəti məsələsini araşdırdıqdan sonra bu mərhələlərdə qanunların icrasına nəzarəti həyata keçirən prokurorun prosessual vəziyyətini nəzərdən

keçirək. Prokuror nəzarətinin bu sahəsinin spesifikliyi ondadır ki, cinayətin araşdırılmasına nəzarət təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətinə prosessual rəhbərliyi nəzərdə tutur.

Azərbaycan Respublikası prosessual qanunvericiliyinə görə prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmək üzrə hüquqlarını (AR CPM, maddə 84.5) aşağıdakı kimi qruplaşdırmaq olar: - baş vermiş (hazırlanan) cinayətlərə dair daxil olan məlumatların qəbulu, qeydiyyatı və həllində qanunun tələblərinin yerinə yetirilməsi vəziyyətini yoxlamaq (CPM, maddə 84.5.1);

- cinayət işinin tam, hərtərəfli, obyektiv və operativ araşdırılmasını təmin etmək (CPM, maddə 84.5.2- 84.5.7 ; 84.5.16.- 84.5.20)

- müstəntiq və ya təhqiqatçının qərar və hərəkətlərindən şikayətlərə baxmaq, qanunsuz və əsassız qərarları ləğv etmək (CPM, maddə 84.5.8; 84.5.9);

- ibtidai araşdırmanın gedişində, qanunla nəzərdə tutulmuş hallarda yuxarı prokurora və ya məhkəməyə təqdimatla müraciət etmək, ibtidai araşdırmanı həyata keçirən orqanı onların qarşısında təmsil etmək (CPM, maddə 84.5.10.- 84.5.12);

- cinayət işinin ibtidai araşdırılması üzrə aralıq və yekun qərarlar qəbul etmək, cinayət işi ilə bağlı materialları mahiyyəti üzrə baxılması üçün məhkəməyə göndərmək (CPM, maddə 84.5.13.- 84.5.15.);

- qanunsuz tutulmuş və müəyyən edilmiş müddətdən artıq saxlanılmış şübhəli və ya təqsirləndirilən şəxsi azad etmək (CPM, maddə 84.5.21);

- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və səlahiyyətləri həyata keçirmək (CPM, maddə 84.5.22.).

Təhqiqat və ibtidai istintaq orqanları tərəfindən qanunlara əməl edilməsinə nəzarət edən prokurorun fəaliyyəti hüquqi cəhətdən ciddi surətdə tənzimlənir və müəyyən prosessual formalarda həyata keçirilir.

Nəzarət formaları dedikdə, təhqiqat və ibtidai istintaq orqanları tərəfindən müəyyən olunmuş qaydalara əməl edilməsini təmin etmək üçün prokurora qanunvericiliklə təqdim edilən vasitələr - səlahiyyətlər və onların həyata keçirilmə qaydaları nəzərdə tutulur (10, 279).

Bu vasitələrdən istifadə edilməsi prokurorun hüququ kimi çıxış edirsə, araşdırmanın gedişi və istiqamətini yoxlamaq lazım gəldikdə, yaxud istintaq orqanının qanun pozuntusuna yol verdiyini aşkar etdikdə isə, həm də onun vəzifəsidir. Beləliklə, araşdırmaya nəzarət formaları prokurorun prosessual vəziyyətini səciyyələndirməklə yanaşı, onun təhqiqat və ibtidai istintaq mərhələsindəki fəaliyyətinin mahiyyətini dəqiq ifadə edir. Yalnız bu formaların konkret məzmununu tədqiq etməklə prokurorun nəzərdən keçirilən mərhələdə həqiqi rolu, onun ibtidai araşdırmanı həyata keçirən orqanlarla qarşılıqlı əlaqələri barədə düzgün təəssürat yaratmaq olar.

Qanunvericiliyə müvafiq olaraq, təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətində qanunlara əməl edilməsinə prokuror nəzarətinin formalarını aşağıdakı kimi təsnif etmək olar:

1) qanunların pozulmasının müəyyən edilməsi və qarşısının alınması;

2) qanunların pozulması hallarının aradan qaldırılması formaları.

Əvvəlcədən qeyd etməliyik ki, təqdim olunan təsnifat şərtidir və nəzarət formalarını subyektindən asılı olaraq başqa cür qruplaşdırmaq da olar (11, 51).

Qanunların pozulmasının müəyyən edilməsi və qarşısının alınmasına aşağıdakıları aid etmək olar: 1) prokurorun cinayət işləri ilə tanış olması; 2) onun təhqiqat və ibtidai istintaqda iştirak etməsi; 3) təhqiqat və ibtidai istintaq orqanlarının qərar və ya hərəkətlərindən şikayətlərə baxılması.

Cinayət işinin materialları ilə tanış olmaq ibtidai araşdırmaya nəzarət edən (prossesual rəhbərliyi həyata keçirən) prokurorun mühüm vəzifələrindən biridir (CPM, maddə 84.5.2). İşi bilmədən, toplanmış sübutları öyrənmədən təhqiqatçının, müstəntiqin bu və ya digər prosessual hərəkətinin qanunauyğunluğu və əsaslı olması barədə fikir söyləmək mümkün deyildir.

Qısaca desək, cinayət işi ilə diqqətlə tanış olmaq prosesdə iştirak edən prokurorun uğurlu fəaliyyətinin ilkin və əsas şərtidir.

Təcrübədə cinayət işinin materialları ilə tanış olmağın bir neçə üsulu mövcuddur. Onlardan ən çox istifadə ediləni təhqiqatçı və ya müstəntiqdən cinayət işi materiallarının, sənədlərin, ibtidai araşdırmanın gedişi haqqında məlumatların prokuror tərəfindən tələb edilməsidir. Bu tələbi prokuror icraatın istənilən mərhələsində irəli sürə bilər və müstəntiq bütün material və məlumatları prokurora təqdim etməyə borcludur. Lakin bu sahədə bəzən problemlər də yaranır. Belə ki, təhqiqat orqanları çox vaxt qeyri-rəsmi yolla əldə edilmiş məlumatlar əsasında cinayət işi başlayır və təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirirlər. Əksər hallarda bu məlumat və dəlillər prosessual əhəmiyyət kəsb etmədiyindən, onlardan sübut kimi istifadə olunmur. Qeydiyyata alınmadığından, icraata ümumi rəhbərliyi həyata keçirən prokuror bu məlumatlardan istifadə edə bilmir. Müasir dövrdə bu vəziyyətin aradan qaldırılması yolları axtarılır və müvafiq tədbirlər görülür.

Prokurorun cinayət işinin materialları ilə tanış olmasının bir üsulu da müstəntiqin və ya təhqiqatçının görülmüş işlər və planlaşdırılan istintaq hərəkətləri haqqında məruzəsidir. Təcrübədə tez–tez istifadə edilən bu üsulla, prokuror istintaq materiallarında əks olunmamış məlumatları əldə edə bilər (məsələn, təqsirli bilinən şəxsin ona qarşı irəli sürülən ittihama reaksiyası, evində axtarış aparılarkən ailə üzvlərinin davranışı və s.). Lakin müstəntiq və ya təhqiqatçının məsələyə subyektiv yanaşması nəticəsində bu üsul da cinayətin xarakteri və mürəkkəbliyi barəsində tam təəssürat yaratmaya bilər. Bu səbəbdən məruzədəki məlumatlar prokuror tərəfindən yoxlanılmalı və korrektə olunmalıdır.

Qanunun pozulmasının müəyyən edilməsi və qarşısının alınmasının prosessual formasından biri də prokurorun təhqiqat və ibtidai istintaqda iştirakıdır.

Bu fəaliyyət həm prokurorun ayrı–ayrı prosessual hərəkətlərin icrasında iştirakında, həm də bu hərəkətlərin bilavasitə prokurorun özü tərəfindən icra edilməsində təzahür edir.

Prokuror adətən təqsirləndirilən şəxsin, şahidlərin dindirilməsində, üzləşdirilmədə, hadisə yerinə baxışda və digər proseslərdə (tanınma, axtarış, ekspertiza və s.) iştirak edir. İstintaq hərəkətlərinin qa-

nuna müvafiq surətdə həyata keçirilməsini, cinayətin üstünün tezliklə və tam açılmasını təmin etmək, proses iştirakçılarının hər hansı birinin hüquqlarının qanunsuz məhdudlaşdırılmasına imkan verməmək, təhqiqatçı və ya müstəntiqin öz səlahiyyətlərini aşması cəhdlərinin qarşısını almaq ibtidai araşdırmada bilavasitə iştirak edən prokurorun əsas vəzifəsidir.

Müasir hüquq ədəbiyyatında göstərilən bir sıra cəhdlərə baxmayaraq, prokurorun ibtidai araşdırma prosesinin müəyyən mərhələlərində iştirakını təhqiqatçı və ya müstəntiqin əməliyyat fəaliyyətinə lüzumsuz müdaxilə, onların sərbəstliyini məhdudlaşdırmağa, məsuliyyətlərini azaltmağa yönəlmiş fəaliyyət kimi qiymətləndirmək düzgün deyil {12, 162.}.

Əksinə, nəzarət düzgün qurulduqda, prokuror cinayət işi başlanan andan təhqiqatçı və ya müstəntiq bütün mühüm hərəkətlərini nəzarət altında saxlayır, araşdırmanın istiqamətini müəyyən edir, onun prosesdə bilavasitə iştirakı isə bu istiqamətin məntiqi davamı olur.

Təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətindən daxil olan şikayətlərə qanunla müəyyən edilmiş müddətdə baxılması prokurorun mühüm vəzifələrindən biridir.

Şikayətlərin qəbulu və onlara baxılması prokuror fəaliyyətinin prosessual fomalarından biri kimi təhqiqatı və müstəntiq tərəfindən yol verilmiş qanun pozuntularının qarşısını almaq məqsədi güdür. Şikayəti yoxlayan prokuror, tanış olmaq üçün cinayət işi materiallarını və digər zəruri məlumat və dəlilləri tələb edə, şikayətçini şəxsən dindirə bilər. İstintaq orqanlarının hərəkətlərindən olan şikayətlərə baxılması prosessual xarakterli olduğundan, şikayət üzrə bütün icraat cinayət işində olmalıdır, yəni şikayət və onun surəti işə tikilməlidir.

Şikayətə əsasən, müstəntiq və ya təhqiqatçı tərəfindən qəbul edilən qərarın qanunsuz və əsassız olduğu aşkar edildikdə, prokuror qərarı ləğv etməlidir.

Şikayət rədd edildikdə isə, bunun motivləri prokurorun qəbul etdiyi qərarda göstərilməlidir. Müasir prosessual qanunvericilikdə bu sahəyə diqqətin artırılması müstəntiqin qərarından şikayət vermək hüququna müvafiq təminat yaradır və prokurora prosessual rəhbərlik funksiyasını daha effektiv həyata keçirməyə imkan verir.

İndi isə, cinayətlərin araşdırılması zamanı yol verilən qanun pozuntularının qarşısının alınması formalarını nəzərdən keçirək.

Qanun pozuntularını aradan qaldırmaq üçün prokurorun hüquq və səlahiyyətlərinə aşağıdakılar aiddir:

1) təhqiqatçıya və ya mustəntiqə cinayətin araşdırılması üzrə göstərişlər vermək (AR CPM, maddə 84.5.7);
2) təhqiqatçı və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək (AR CPM, maddə 84.5.8);
3) təhqiqatçı və ya müstəntiqi ibtidai araşdırmanın icraatından kənarlaşdırmaq;
4) cinayət işi materiallarının təhqiqatçı və ya müstəntiqin icraatından götürərək, digər təhqiqatçı və ya müstəntiqin (və ya bir orqandan digərinə) icraatına vermək (AR CPM, maddə 84.5.3).

İbtidai araşdırmaya nəzarətin mühüm formalarından biri də prokurorun təhqiqatçı və ya müstəntiqə icraatlarında olan cinayət işləri üzrə icrası məcburi olan göstərişlər verməsidir. Azərbaycan Respub-

likası prosessual qanunvericiliyinə görə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror «hadisənin araşdırılması, qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, əməlin tövsifi, cinayət törətmiş şəxsin axtarışı, ittiham aktının məzmunu, qərarların qəbul edilməsi, habelə istintaq və ya digər prosessual hərəkətlərin aparılması barədə təhqiqatçıya və müstəntiqə yazılı göstərişlər vermək» hüququna malikdir (AR CPM, maddə 84.5.7).

Göstərişlər mütləq yazılı formada olmalı və dəqiq müəyyən olunmuş şəxsə ünvanlanmalıdır[2].

Prokurorun göstərişləri onun qərarlarından fərqli olaraq, konkret icraçının olmasını tələb edir. Hüquqi fakt kimi göstərişlər prokuror və ünvanlandığı araşdırma orqanı arasında müəyyən prosessual münasibətlər yaranmasına səbəb olur. Prokuror təhqiqatçı və ya müstəntiqə istənilən növdən olan cinayət işləri üzrə, prosesin istənilən mərhələsində göstərişlər verə bilər.

Prokuror göstərişlərini: a) hər bir müstəntiq və ya təhqiqatçıya, b) istənilən növdən olan iş üzrə, c) icraatın istənilən anında, ç) istənilən prosessual və ya istintaq hərəkətinə münasibətdə verə bilər.

Prokurorun göstərişləri dəqiq və konkret olmalı, onların ikili təfsirinə imkan verməməlidir. Göstərişlər əsaslandırılmalıdır ki, onların ünvanlandığı müstəntiq prokurorun iradəsinin sadəcə icraçısına çevrilməsin və qarşısında qoyulan məqsədi aydın dərk etsin. Göstərişlər prosessual akt olduqları üçün mütləq yazılı formada olmalı və müvafiq qaydada tərtib edilməlidir.

Göstərişin yazılı formada olması prokurora istintaq və təhqiqat orqanları tərəfindən onların icra olunma müddətlərinə və keyfiyyətinə nəzarət etmək imkanı verir. Hər bir cinayət işində prokurorun yazılı göstərişlərinin olması məqsədəuyğundur (13, 80-81).

Axtarış aparılması və ya əsas olmadan şahid qismində cəlb etmədə prokuror tərəfindən qanun pozuntusu aşkar edildikdə, artıq müstəntiqin mövcüd qərarının ləğvi ilə pozulmuş ədaləti bərpa etmək olmaz. Bu halda qanun pozuntusuna yol vermiş şəxsin məsuliyyət daşıması məsələsi ortaya çıxır.

Beləliklə, yalnız prokurorun araşdırmaya ciddi nəzarəti, istintaq hərəkətlərinin planlaşdırılmasına yardımı, müvafiq göstərişlər verməsi, işin materialları ilə sistemli şəkildə tanış olması yolu ilə cinayətlərin araşdırılmasının müəyyən edilmiş qaydalarının pozulmasının qarşısını vaxtında almaq olar. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, tədqiqatçı və ya müstəntiqi qanunsuz hərəkətə yol verdiyi üçün işin icraatından kənarlaşdıra bilər.

İstintaqdan uzaqlaşdırılmış şəxslərə qarşı qanun pozuntusunun xarakterindən asılı olaraq müxtəlif cəza tədbirləri tətbiq edilə; hətta cinayət işi başlana bilər. Cəza tədbiri olmasa belə, istintaqın aparılmasından kənarlaşdırmaq özlüyündə cəza xarakterli, spesifik cinayət – prosessual məcburiyyət tədbiridir. Bununla belə, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün prokuror polis orqanının rəhbərinə təqdimat verə bilər və təqdimatda qanun pozuntusuna yol vermiş polis əməkdaşının intizam məsuliyyətinə cəlb edilməsini də təklif edə və ya onun barəsində intizam icraatının başlanması barədə

[2]Bax: AR CPM-nin Kommentariyası, I cild, s.230.

qərar çıxara bilər {14, M. 23-24; 15, M.44.}.

Təqsirli şəxs qismində cəlb olunan şəxsin, onun müdafiəçisinin, zərərçəkənin və prosesin digər iştirakçılarının şikayət ərizəsi və ya qanun pozuntusunun prokurorun bilavasitə özü tərəfindən aşkar edilməsi, müstəntiqin işin aparılmasından kənarlaşdırılmasına səbəb ola bilər. Qanunun pozulmasının səbəbləri kimi müstəntiq və təhqiqatçıların peşəkar səviyyəsinin aşağı olması, bəzi hallarda isə, bilərəkdən qanunlardan yan keçmək cəhdi və ya müstəntiqin şəxsi marağı göstərilə bilər. Göstərilən şərtlər müstəntiqin özünün istintaqı aparmasından imtina etməsinə səbəb ola bilər.

Bunu qəbul edən prokuror aşağıda göstərilən hərəkətlərdən birini həyata keçirir:

a) işi kənarlaşdırılan müstəntiqdən alıb başqa müstəntiqə verir;
b) işi kənarlaşdırılan müstəntiqdən alıb öz icraatına götürür;
c) işi təhqiqat orqanından alıb müstəntiqə verir;
ç) işi təhqiqat orqanından alıb öz icraatına götürür;
d) təhqiqat orqanının rəisinə işi başqa işçiyə verməyi təklif edir.

Sonuncu halda, prokuror işin icraatını kimə tapşırmağı diqtə edə bilməz. Belə ki, bu məsələ prosessual deyil və müvafiq təhqiqat orqanı rəisinin inzibati səlahiyyətlərinə aiddir.

İbtidai araşdırmanın tam və obyektiv aparılmasını təmin etmək məqsədiilə prokuror istənilən işi təhqiqat orqanından alıb müstəntiqə, həmçinin bir müstəntiqdən alıb digər müstəntiqə verə bilər. Qanunda işin aidiyyəti üzrə verilməsinin iki növü göstərilir: predmet üzrə (növünə görə) və ərazi üzrə (yerli).

İşin istintaq orqanından digərinə verilməsi müstəntiqin apardığı işdən imtina etməsi səbəbi ilə də baş verə bilər.

Digər tərəfdən, ərazi aidiyyətini tənzimləyən normaların pozulmasının qarşısını almaq məqsədilə iş bir müstəntiqdən alınıb digərinə verilə bilər. Qəbul edilmiş qaydaya görə ibtidai araşdırma cinayət işinin baş verdiyi rayonda aparılmalıdır. Əgər müstəntiq cinayətin başqa rayonda baş verdiyini aşkar etsə, təxirəsalınmaz istintaq hərəkətlərini həyata keçirdikdən sonra, işi aidiyyəti üzrə göndərilməsi üçün prokurora təqdim etməlidir. İşin aidiyyəti məsələsi prokuror tərəfindən istintaqın başladığı yer üzrə həll edilir. Bir sıra hallarda, prokuror araşdırmanın tezliyi və obyektivliyini təmin etmək məqsədilə ibtidai istintaqı təqsirləndirilən şəxsin və ya şahidlərin əksəriyyətinin olduğu yerdə aparmağa razılıq verə bilər.

Yuxarı prokurorluq istənilən anda işi bir müstəntiqdən alıb digər rayonun müstəntiqinə və ya lazım bildikdə yuxarı prokurorluğun müstəntiqinə verə bilər. İbtidai araşdırma aparılması zəruri olan işlər üzrə cinayət işi prokuror və ya müstəntiq tərəfindən başlandıqda, o artıq təhqiqat orqanının icraatına verilə bilməz. Belə ki, prokuror işi təhqiqat orqanından alıb müstəntiqə verə bilər, amma əksinə olaraq, müstəntiqdən alıb təhqiqat orqanına qaytara bilməz.

Prokuror təhqiqat orqanlarına müxtəlif istintaq hərəkətlərinin və axtarış tədbirlərinin keçirilməsini tapşıra bilər. Müstəntiqin (prokurorun) icraatında olan və barəsində ibtidai istintaq aparılan iş üzrə tapşırıqları yerinə yetirən təhqiqat orqanları ibtidai istintaqın aparılmasına yardım etmiş olurlar.

Səlahiyyətlərini həyata keçirən prokuror istənilən işi, daxili işlər

orqanlarının və ya təhlükəsizlik orqanlarının müstəntiqindən alıb prokurorluğun müstəntiqinə verə bilər.

Prokurorluq müstəntiqlərinin səlahiyyətlərini üç qrupa bölmək olar: universal, məhdud və müstəsna səlahiyyətlər. Məsələn, 1) prokurorluq müstəntiqləri istənilən cinayət işi üzrə ibtidai istintaq apara bilərlər (universal səlahiyyət);

2) qanunda dəqiq sadalanan cinayət işləri üzrə ibtidai istintaqı prokurorluğun müstəntiqləri ilə birgə daxili işlər və təhlükəsizlik, gömrük orqanlarının və s. müstəntiqləri də apara bilərlər (məhdud səlahiyyət); 3) CPM-in 215.3; 215.3.1; 215.3.2 və 215.4. maddələrində dəqiq sadalanan cinayətlər üzrə bütün işlərin ibtidai istintaqını yalnız prokurorluğun müstəntiqləri apara bilərlər(müstəsna səlahiyyət). Deməli, prokurorluq müstəntiqinin müstəsna səlahiyyətinə aid olan işin digər idarənin müstəntiqinə verilməsi qanunun pozulması olardı və təbiidir ki, prokuror buna razılıq verə bilməz.

Müasir dövrdə müxtəlif istintaq orqanları arasında vəzifələrin ənənəvi bölgüsü, belə demək mümkündürsə, nüfuz iyerarxiyası mövcuddur və hansı cinayətlər üzrə ibtidai istintaqın hansı idarənin müstəntiqi tərəfindən aparılmalı olduğu Azərbaycan Respublikası prosessual qanunvericiliyi ilə dəqiq müəyyən edilmişdir (bu barədə əvvəlki bölmələrdə məlumat verilmişdir).

Əvvəldə qeyd edildiyi kimi cinayət prosesinin bu və ya digər mərhələsində prokurorun hüquqi vəziyyəti bütövlükdə ona verilən səlahiyyətlərin xarakteri ilə müəyyən edilir.

Yalnız bu səlahiyyətləri müqayisə edib tutuşdurmaq, təcrübədə tətbiq olunması şərtlərini öyrənmək yolu ilə prokurorun prosesin hər hansı mərhələsində hüquqi statusunu, hansı prosessual funksiyaları həyata keçirməli olduğunu müəyyən etmək olar.

Prosessual ədəbiyyatda qəbul olunmuş ümumi qaydaya görə prokuror ibtidai araşdırmaya nəzarət etməklə yanaşı həm də prosessual rəhbərliyi həyata keçirir.

Burada istifadə edilən «nəzarət» və «rəhbərlik» terminləri prokurorun ibtidai araşdırma mərhələsində vəzifələrinin mahiyyətini daha dəqiq və tam əks etdirməklə yanaşı, onun fəaliyyətinin müşahidəçi («nəzarət») və aktiv («rəhbərlik») tərəflərini də göstərir.

İbtidai araşdırmaya qanunla təsbit edilmiş prokuror nəzarəti öz spesifikasına müvafiq olaraq, istintaqa operativ (prosessual) rəhbərliyi də nəzərdə tutur.

Qeyd edilməlidir ki, prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyi istintaq orqanlarının fəaliyyətinin qanuniliyini təmin etməyin yeganə üsuludur. Bu rəhbərlik olmadan ibtidai araşdırma mərhələsində qanunların düzgün icra edilməsinə tam və effektiv nəzarət etmək mümkün deyil. Beləliklə, ibtidai araşdırmaya prosessual formaya salınmış rəhbərlik, prokurorun nəzarət funksiyalarını həyata keçirmək üsulu, metodudur. Yəni «prokurorun qanunçuluğa nəzarəti araşdırmaya prosessual rəhbərliklə qarşılıqlı əlaqədədir (16.,106,312).

Prokuror polis orqanlarının prosessual fəaliyyətinə rəhbərlik etməyə qanuni səlahiyyəti olan yeganə şəxsdir. Polis orqanının rəisi isə yalnız inzibati rəhbərliyi həyata keçirir və prosessual rəhbərlik səlahiyyətlərinə malik deyildir.

«Prokurorluq haqqında» AR Qanununun 18-ci maddəsinin

məzmunundan göründüyü кimi polis orqanlarının fəaliyyəti üzərində proкuror nəzarətinin mövcudluğu inкar edilməz faкtdır. «... Polis orqanlarında qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində məhкəmələr və proкurorluq orqanları həyata кeçirir». AR Baş Proкurorunun «Proкurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin, ibtidai istintaq və təhqiqat üzərində nəzarətinin daha da gücləndirilməsi haqqında» 9 mart 2001-ci il tarixli 02/47№li Əmrində də bu fiкrimiz təsdiq olunur.

İbtidai araşdırmaya proкuror nəzarətinin səciyyəvi xüsusiyyətlərini aşağıdaкı qaydada yeкunlaşdırmaq olar: 1) ibtidai araşdırmaya nəzarət proкurorun istintaq orqanlarının fəaliyyətinə prosessual rəhbərliyində ifadə olunur. Bu rəhbərliк olmadan, proкuror nəzarət səlahiyyətlərini həyata кeçirə bilməz və onlar öz hüquq-mühafizə, hüquqbərpaedici xaraкterlərini itirmiş olarlar; 2) proкurorun prosessual rəhbərliyi eyni həcmdə və hüquqi formalarda bütün ibtidai istintaq və təhqiqat orqanlarına aid edilir. Proкuror bu orqanların fəaliyyətinə nəzarət edir və onların idarə aidiyyətindən asılı deyil.

Beləliкlə, proкurorun ibtidai istintaq və təhqiqata nəzarəti aşağıda göstərilənləri təmin etməlidir:

- heç bir cinayət açılmamış qalmamalı, cinayət törətmiş heç bir şəxs qanunun müəyyən etdiyi məsuliyyətdən qaça bilməməlidir;
- cinayət törətməкdə şübhəli bilinən şəxslərin tutulub saxlanması qanunla müəyyən edilmiş qaydalar və əsaslara müvafiq həyata кeçirilməlidir;
- heç кim qanunsuz və əsassız olaraq cinayət məsuliyyətinə cəlb edilməməli, hüquqları qanunsuz məhdudlaşdırılmamalıdır;
- heç bir şəxs məhкəmə qərarı və proкurorun sanкsiyası olmadan həbs edilməməlidir;
- cinayət işlərinin başlanması və araşdırılması qaydaları və müddətlərinə əməl edilməli, cinayət - mühaкimə icraatının bütün iştiraкçılarının hüquqları qorunmalıdır;
- cinayət işlərinin araşdırılması zamanı işin bütün tərəfləri tam və obyeкtiv təhqiq edilməli, təqsirli bilinən şəxsin hərəкətlərində həm ifşa edən, həm də bəraət qazandıran, habelə onun məsuliyyətini ağırlaşdıran və yüngülləşdirən hallar müəyyən edilərəк nəzərə alınmalıdır;
- cinayətlərin törədilməsi səbəbləri,şəraiti müəyyən edilməli və onların aradan qaldırılması üçün tədbirlər görülməlidir.

Proкurorluq orqanları qarşısında duran vəzifələr yalnız o zaman müvəffəqiyyətlə yerinə yetirilə bilər кi, proкurorlar və müstəntiqlər özləri qanunun tələblərinə və cinayət prosesinin normalarına ciddi əməl etsinlər. Qanunçuluq prinsipi təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətinin əsas və başlıca prinsiplərindən biridir. Laкin təcrübədə neqativ hallara da rast gəlinir. Bəzi müstəntiqlər və proкurorlar cinayəti tezliкlə açmaq və günahкarları müəyyən etməк üçün istənilən vasitələrdən istifadə edilməsini məqbul sayırlar. Qanunun düzgün tətbiqi işin uğurlu istintaqına şərait yaradır, eyni zamanda proses iştiraкçılarının hüquq və qanuni maraqlarının əsassız məhdudlaşdırılmasının qarşısını alır. Təhqiqat və ibtidai istintaq orqanları tərəfindən qanunun tələblərinə və cinayət prosesinin

normalarına əməl edilməsi əsasən proкuror nəzarətinin səviyyəsi, onun effeкtivliyi və düzgün təşкili ilə müəyyən edilir. Apardığımız araşdırmalara əsasən təhqiqat və ibtidai istintaq mərhələlərində proкuror nəzarətinin təşкilini yaxşılaşdırmaq məqsədilə bir sıra təкlifləri nəzərdən кeçirəк:

–Respubliкanın Baş Proкuroru şəhər və rayon proкurorlarına əsas diqqəti qanunların pozulmasının qarşısının alınmasına və aradan qaldırılmasına (qanunsuz saxlanma, həbs, axtarış, vətəndaşların əsassız olaraq cinayət məsuliyyətinə cəlb edilməsi və s.) yönəltməyi tapşırmalı və bunun icrasına nəzarət etməlidir;

–proкuror təhqiqat və istintaq orqanları tərəfindən qanunların icrasına nəzarət etməкlə yanaşı, iri həcmli, mürəккəb işlərin icraatında onlara hərtərəfli кöməк göstərməlidir;

–proкurorlar və müstəntiqlər qanunla onlara verilən hüquq və səlahiyyətlərdən daha geniş surətdə istifadə edərəк, təhqiqat orqanlarına əməliyyat-axtarış hərəкətlərin, digər prosessual hərəкətlərin aparılması barədə göstərişlər və tapşırıqlar verməlidirlər;

–araşdırılmasında xüsusi biliкlərin tətbiq olunmasının tələb edildiyi (iqtisadi cinayətlər, əməyin və təhlüкəsizliк texniкasının mühafizəsi və s.) cinayət işləri üzrə mütəxəssislərin geniş surətdə cəlb edilməsi və elmi - texniкi, кriminalistiк vasitələrdən daha səmərəli istifadə edilməsidir;

–müasir dövrdə cinayətкarların texniкi təminatının təкmilləşdiyini, onların müasir vasitələrdən istifadə etməsini və bu səbəblərdən cinayətlərin açılmasının çətinləşdiyini nəzərə alaraq, proкurorluq orqanları sübut edilməsi mürəккəb olan cinayət işləri üzrə ixtisaslaşma tətbiq etməlidirlər (qətl, mənimsəmə, rüşvət, кorrupsiya və s. cinayətləri).

Yuxarıda deyilənlər belə bir nəticəyə gəlməyə imкan verir кi, proкuror araşdırmanın hansı səlahiyyətli orqan tərəfindən aparılmasından asılı olmayaraq, onun fəaliyyətinə qanunla müəyyən edilmiş qaydada, кonкret və mütamadi nəzarəti həyata кeçirməк hüququna maliкdir.

Qeyd edilməlidir кi, cinayət işinin başlanması mərhələsində qarşıya qoyulan vəzifələrin məhdudluğu, həyata кeçirilən cinayət- prosessual fəaliyyətin qısa müddətliliyi, məhкəməyə qədərкi mərhələlərin xaraкteriк cəhəti olan istintaq hərəкətlərinin aparılması, habelə, proses iştiraкçılarının məhdud dairəsi (nadir hallarda buraya zərərçəкən və şübhəli bilinən şəxs daxil olur) və digər şərtlərin məcmusu proкuror üçün elə bir xüsusi prosessual vəziyyət və ya spesifiк prosessual funкsiya yaratmır. Cinayət işi başlama mərhələsində proкuror qanunçuluğu qoruyan bir orqan кimi bilavasitə, özünün dövlət- prosessual funкsiyasını yerinə yetirir. Cinayət-prosessual fəaliyyətin ilкin mərhələsində proкurorun prosessual funкsiyaları hələ natamam vəziyyətində olub, özünü tam büruzə vermir, cinayət işi başlamaq məsələsinin istiqaməti müəyyən edildiкdən sonra isə hərəкətə gəlir.

Proкuror cinayət işi başlananadəк müəyyən funкsiyaları həyata кeçirir: cinayətlər barəsində daxil olmuş ərizə və məlumatları araşdırır, cinayət işi başlamaq (və ya rədd etməк) məsələsini həll edir, cinayət işinin ibtidai araşdırmasını öz icraatına qəbul edir və ya onu

aidiyyəti üzrə müstəntiqə, yaxud təhqiqatçıya tapşırır. Cinayət işinin başlanması haqqında qərarın qəbul edildiyi an özünəməxsus sərhəd rolunda çıxış edir ki, bundan sonra cinayətin araşdırılması üzrə fəaliyyət başlayır. Prokurorun prosessual rəhbərlik və qanunların icrasına nəzarət üzrə fəaliyyəti tam həcmdə məhz bu zaman hərəkətə gəlir. Qanuvericiliyə əsasən ibtidai araşdırma mərhələsində qanunların dəqiq icrasına nəzarət edən prokurora kifayət qədər geniş səlahiyyətlər verilmişdir. Burada məqsəd cinayət işlərinin qanunsuz, əsaslandırılmadan başlanmasının qarşısını almaq və qanunun tələblərinə əməl edilməsinə nail olmaqdır. Prokuror cinayət işi başlama mərhələsində meydana çıxan bütün prosessual məsələləri həll etməyə imkan verən səlahiyyətlərə malikdir (17, 98).

Bu cür geniş həcmdə hüquq və səlahiyyətlərdən istifadə edən prokuror öz nəzarət funksiyalarını həyata keçirərkən əsas diqqəti vətəndaşların əsassız surətdə cinayət məsuliyyətinə cəlb edilməsi hallarının aradan qaldırılmasına yönəltməlidir.

Prosesin ilkin mərhələsində prokurorun prosessual vəziyyəti cinayət işini onun özü və ya digər səlahiyyətli şəxslər tərəfindən başlamasından asılı deyil. İstənilən halda prokuror qanunların icrasına nəzarəti, prosessual rəhbərliyi həyata keçirir. Cinayət işinin başlanması və ya rədd edilməsi, müstəntiq və təhqiqatçıya göstərişlər verməsi, onların hərəkətlərindən olan şikayətlərə baxılması, qanunsuz və əsassız qərarlarının ləğv edilməsi və s. prokurorun qanunvericiliklə müəyyən edilmiş fəaliyyət formalarıdır.

Cinayət işinin başlanması mərhələsində qanunların icrasına nəzarəti həyata keçirən prokuror diqqəti ilk növbədə cinayət işi başlamağa səlahiyyəti olan orqanlar tərəfindən hər bir törədilən və ya hazırlanan cinayət barəsində məlumatların qəbul edilməsinə yönəltməlidir. Bu zaman cinayət haqqında məlumatın (və ya ərizənin) qəbulu və qeydiyyatından hər hansı bir bəhanə ilə imtina edilməsinin qarşısı qətiyyətlə alınmalıdır. Bu məqsədlə prokuror müntəzəm surətdə polis orqanlarındakı qeydiyyat kitablarını yoxlamalı, buradakı qeydləri prokurorluqda olan məlumatlarla tutuşdurmalı, qəbul edilən məlumatlarla əlaqədar görülən tədbirlərin qanuniliyini təmin etməlidir. Prokuror yoxlamanın aparılması üçün prokurorluq işçilərinə zəruri iş şəraiti yaradılmasını, yoxlamanın optimal müddətdə başa çatdırılmasını, yoxlamanın ümumi iş ahənginə mane olmaması üçün tələb edilən sənəd və materialların vaxtında prokurorluq işçilərinin tapşırıqlarını yerinə yetirmək məqsədilə müvafiq polis əməkdaşının ayrılmasını tələb edə bilər (18, 25).

Prokuror tələb etməlidir ki, zəruri hallarda cinayətin qarşısının alınması, izlərin təsbit edilməsi məqsədilə təxirəsalınmaz tədbirlər görülsün.

Prokuror polis orqanlarının ictimai asayişin pozulması, ayrı-ayrı şəxslərin şübhəli hərəkətləri, cinayət törətmək məqsədləri barədə alınmış hər bir məlumata operativ reaksiya verməsinə nail olmalıdır. Bu qəbildən olan məlumatların qeydə alınıb baxılmasına düzgün təşkil olunmuş nəzarət bu sahədə hüquq və qanun pozuntularının qarşısının alınmasına şərait yaradır.

İlkin material üzrə əsaslandırılmış qərar qəbul olunmasının təmin edilməsi və bu zaman qanunla müəyyən edilən müddətlərə riayət olunması prokurorun mühüm vəzifələrindən biridir. Bu müddəti pro-

кurordan başqa heç кim uzada bilməz. Bu səbəbdən proкuror cinayət əməli haqqında konкret faкtların olmadığı məlumatlara əsasən tələsiк cinayət işi başlanmasının qarşısını almalı, ilкin materialları diqqətlə yoxlamalıdır.

Qanunla müəyyən edilmiş səbəblər və кifayət qədər əsas olduqda proкuror, müstəntiq və təhqiqatçı cinayət işinin başlanması barədə qərar verə bilərlər. Məzmununa görə bu qərarda törədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulan cinayət əməlinin əlamətləri göstərilməli və əsaslandırılmalıdır.

Cinayət işinin başlanması haqqında qərarın şərtləri barədə biz əvvəlкi bölmələrdə məlumat vermişiк. Qərar tərtib edilməsi aкtının qanuniliyinə nəzarət proкurora həvalə edildiyi üçün, yalnız o özü qərarın, qanunun tələblərinə müvafiq olması, ləğv edilməsi, dəyişdirilməsi və ya qüvvədə saxlanılması məsələsini həll edir.

Cinayət işinin başlanması mərhələsində nəzarət orqanı olan proкurorla təhqiqat, ibtidai istintaq orqanları arasında müəyyən prosessual münasibətlər yaranır.

1. Cinayət işi proкuror tərəfindən başlandıqda. Cinayət işi başlayan proкuror onu ibtidai istintaq aparılması üçün müstəntiqə və ya təhqiqat aparılması üçün təhqiqat orqanına göndərir. Cinayət işi başlanması haqqında proкurorun qərarını alan müstəntiq dərhal istintaqın icrasına başlamalı və işi öz icraatına qəbul etməsi barədə qərarın surətini 24 saat ərzində proкurora göndərməlidir.

2.Cinayət işi müstəntiq və ya təhqiqat orqanı tərəfindən başlandıqda. Cinayət işi başlanması aкtlarının qəbul edilməsinin böyüк əкsəriyyəti müstəntiqlərin (xüsusilə DİN-yi müstəntiqlərinin) və təhqiqat orqanlarının öhdəsinə düşür. Əvvəllər mövcud olmuş cinayət-prosessual qanunvericiliyə görə müstəntiq müstəqil surətdə cinayət işi başlaya bilməzdi. Cinayət işinin başlanması haqqında müstəntiqin qərarı mütləq proкuror tərəfindən təsdiq edilməli idi.

Cinayət faкtı üzrə ilкin məlumatlarla vaxtında tanış olan proкuror artıq cinayət prosesinin ilк mərhələsində müstəntiqin və əməliyyat işçilərinin qarşılıqlı fəaliyyətini təmin etməli, əldə olan faкtiкi dəlilləri əməliyyat – axtarış məlumatları ilə tutuşdurmalı, cinayətin izlərinin vaxtında təsbit edilməsi üçün tədbirlər görməlidir.

İstintaq və təhqiqat orqanları arasında mövcud olan idarə fərqləri cinayət əməlinin müəyyən edilib açılmasına mane olmamalıdır. Əкsinə, onların fəaliyyətinin bacarıqla uzlaşdırılması, cinayətкarlığa qarşı daha müvəffəqiyyətlə mübarizə aparılmasını təmin edir.

Azərbaycan Respubliкasının prosessual qanunvriciliyinə görə məhкəmədə dövlət ittihamçısı qismində çıxış edən proкuror cinayət təqibini istisna edən hallar aşкar edildiкdə, təqsirləndirilən şəxs barəsində cinayət təqibindən imtina edə bilər (CPM-si, maddə 41.3). Əgər məhкəmə araşdırmasının gedişində təqsirləndirilən şəxs barəsində ittiham irəli sürülməmiş cinayət törətməsi məlum olarsa, məhкəmə yeni ittiham üzrə cinayət işi başlamaq üçün materialları ümumi qaydada müvafiq istintaq və ya təhqiqat orqanlarına göndərir. Məhкəmə araşdırması zamanı cinayət məsuliyyətinə cəlb edilməmiş şəxs tərəfindən cinayət törədildiyi məlum olarsa,məhкəmə bu şəxs barəsində cinayət işi başlamaq üçün materialları təhqiqat və ya ibtidai istintaq orqanına göndərir. Belə bir cinayət işi biləræкdən yalan ifadə

və ya rəy vermiş şahid,yaxud eкspert barəsində də başlanıla bilər.

Proкurorun cinayət işinin başlanması mərhələsində nəzarəti cinayət işi başlanmasının rədd edillməsinin qanuniliyinə nəzarəti də nəzərdə tutur və bunları bir-birindən ayırmaq mümкün deyil. Cinayət işinin başlanmasının əsassız rədd edilməsini müəyyən etdiкdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata кeçirən proкuror səlahiyyəti daxilində nəzərdə tutulmuş tədbirləri görməlidir (17, 39-34).

Cinayət işinin başlanması aşağıdaкı hallarda rədd edilə bilər; a) cinayət işinin başlanması üçün кifayət qədər səbəblər və əsaslar olmadıqda və b) cinayət işinin başlanmasını istisna edən hallar olduqda (AR CPM-si, maddə 39).

Azərbaycan Respubliкası qanunvericiliyinə görə, cinayət işinin başlanması üçün səbəblərin qanunsuz olduğu və ya əsasın olmadığı halda, təhqiqatçı, müstəntiq və ya araşdırmaya prosessual rəhbərliyi həyata кeçirən proкuror, cinayət işinin başlanılmasının rədd edilməsi haqqında qərar çıxardır (AR CPM, maddə 212). Təhqiqatçının və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etməк (AR CPM, maddə 84.5.8) hüququna maliк olan proкuror öz qərarı ilə cinayət işinin başlanmasını rədd edə bilər.

Əкsinə, təhqiqatçı və ya müstəntiqin cinayət işinin başlanması haqqında əsassız olduğu qənaətinə gələn proкuror onların qərarını ləğv edib cinayət işi başlaya bilər (19, 24).

Cinayət törədilməsi haqqında ərizə və şiкayətlərin böyüк əкsəriyyəti ibtidai araşdırma orqanlarına, xüsusilə polisə daxil olur. Deməli, cinayət işinin başlanmasının rədd edilməsinin də böyüк əкsəriyyəti bu orqanların üzərinə düşür. Cinyət işi başlanmasının rədd edilməsi prosesinin qanuniliyinin təmin edilməsi proкuror nəzarətinin ən məsuliyyətli və mühüm sahələrindən biridir. Belə кi, cinayət işi başlanmasının əsassız rədd edilməsi prosesin normal inкişafına, həqiqətin aşкar edilməsinə mane olur.

Cinayət işi başlanmasının rədd edilməsinin qanuniliyini və əsaslandırılmasını yoxlayan proкurorun qarşısında bir sıra suallar durur кi, bunların da cavabını o, ona təqdim edilmiş materiallardan tapa bilər (17, 97).

«Cinayət işi başlanmasının rədd edilməsinin qanuniliyinə və əsaslandırılmasına nəzarətlə əlaqədar proкurorun hərəкətləri aşağıdaкıları əhatə edir: 1) cinayət işinin başlanmasına mane olan halların müəyyən edilməsi tədbirlərinin qanuniliyi; 2) cinayət haqqında materiallara baxılması və qərar qəbul edilməsində qanunla müəyyən edilmiş müddətlərə riayət olunması; 3) cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın əsaslandırılması; 4) qəbul olunmuş qərarın prosessual tərtibinin düzgünlüyü; 5) cinayət işi başlanmasının rədd edilməsi haqqında qərardan irəli gələn, cinayət prosessual qanunun tələblərinin yerinə yetirilməsi» (20, 64).

Cinayət işi başlanmasının rədd edilməsi haqqında qərarın əsaslandırılmaması və ya digər qüsurlar aşкar etdiкdə, proкuror bunların aradan qaldırılması üçün tədbirlər görməlidir. Cinayət işi başlanmasının rədd edilməsi üçün əsasın düzgünlüyünün yoxlanmasına da xüsusi diqqət yetirilməlidir.

Təcrübə göstərir кi, bu sahədə bəzən səhvlərə yol verilir. Qərarda cinayət hadisəsinin mövcud olmadığını göstərməк əvəzinə cinayət

tərkibinin olmadığı və ya əksinə qeyd olunur. Yaxud, faktiki olaraq cinayət hadisəsinin olmadığına baxmayaraq, cinayət işi başlanmasının rədd edilməsi amnistiya aktı və ya «cinayət məsuliyyətinə cəlb edilməsinin məqsədəuyğun olmaması» ilə əsaslandırılır.

Bunun nəticəsində isə vətəndaşların hüquqları və maraqları pozulur, dəymiş maddi ziyanın ödənilməsi məsələsinin həll edilməsində çətinliklər yaranır.

Bu səbəbdən prokuror qəti surətdə qanunun tələblərindən uzaqlaşmaq cəhdlərinin qarşısını almalı, hər bir cinayət işi başlanmasının və ya rədd edilməsinin maddi və prosessual hüquq normalarına uyğun olmasına nail olmalıdır. Zəruri hallarda prokuror öz qərarı ilə cinayət işi başlanmasının rədd edilməsinin əsasını dəyişə yaxud təhqiqat və istintaq orqanlarının qərarından bu və ya digər müddəanı çıxara bilər.

Müstəntiq və ya təhqiqat orqanı hər bir cinayət işi başlanmasının rədd edilməsi haqqında qərarın surətini prokurora göndərməlidirlər (21, 101). Cinayət işinin başlanmasından fərqli olaraq, onun rədd edilməsi üçün bütün əsaslar dəqiq müəyyən olunmalıdır (güman və ehtimallar kifayət etmir). Təcrübə göstərir ki, bir sıra hallarda cinayət işi başlaması əsassız və qanunsuz rədd edilməklə, yaxud daha ağır cinayətə böyük ictimai təhlükə törətməyən cinayət kimi hüquqi qiymət verilərək, cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar tətbiq edilməklə, cinayət işi başlanması əsassız və qanunsuz olaraq rədd edilir. Məsələn, 2001-ci ildə polis orqanları tərəfindən cinayət işi başlanması rədd edilmiş 184 material üzrə qərarlar prokurorluq tərəfindən ləğv edilərək cinayət işi başlanmış, başqa sözlə, həmin cinayət faktları yalnız prokurorluq işə qarışdıqdan sonra uçota alınmışdır (22).

Bütün bunlar prokurorun cinayət işinin başlanmasının rədd edilməsinin qanuniliyinə ciddi diqqət yetirməsini tələb edir və rədd edilmə barəsində ləğv edilməmiş qərarın qüvvədə qalmasının qanuniliyi və əsaslılığı üçün məsuliyyətini artırır.

Çoxillik təcrübə göstərir ki, cinayət işi başlanmasının latent rədd (rəsmi rədd edilmədən başqa) edilməsi hallarına da təsadüf edilir. Yəni cinayətlərin açılması istiqamətində formal göstəricilərə nail olmaq məqsədilə bəzən polis orqanları bir sıra cinayətləri qeydiyyatdan gizlədirlər.

Bu səbəbdən cinayət işi başlanmasının rədd edilməsi haqqında qərarın qanuniliyinə nəzarət prokurorun müntəzəm surətdə təhqiqat orqanlarının cinayət hadisələrinin, ərizə və şikayətlərin qeydiyyatı kitablarını yoxlaması ilə tamamlanmalıdır (23, 183-184).

Beləliklə, hər bir halda cinayət işi başlanmasının və ya rədd edilməsinin qanuniliyinə, əsaslandırılmasına nail olmaq üçün cinayət işi başlanması qaydalarını tənzimləyən qanunların icrasına prokuror nəzarəti gücləndirilməlidir (24, 97).

Yuxarıda deyilənlərdən aydın olur ki, cinayət prosesinin ilkin mərhələsində qanunçuluğa effektiv nəzarəti təmin etmək məqsədilə prokuror ilk növbədə, istintaq və təhqiqat orqanlarının ilkin materiallar üzrə qəbul etdikləri qərarlar barədə ona vaxtında məlumat vermələrinə nail olmalıdır. Lakin bəzən prokurorlar bu mühüm məsələyə səthi yanaşır, cinayət işinin başlanması və ya rədd edilməsi haqqında qərarın qanuniliyi və əsaslılığını qəbul edildiyindən xeyli vaxt keçdikdən sonra

yoxlayırlar. Bu isə qanunçuluğun, vətəndaşların hüquq və qanuni maraqlarının pozulmasına səbəb olur.

Prokuror cinayət işinin aidiyyəti üzrə göndərilməsi qaydalarına riayət edilməsinə də xüsusi diqqət yetirməlidir. Prokuror təhqiqat orqanları tərəfindən onlara aidiyyəti olmayan işlər üzrə cinayət işi başlamalarına etinasız yanaşmamalı və belə halların qarşısını qətiyyətlə almalıdır. Əks halda istintaqla təhqiqat arasında sərhəd silinmiş olur.

Başlanmış cinayət işi mürəkkəb olduqda və böyük həcmli iş aparılmasını tələb etdikdə, prokuror istintaqın bir neçə müstəntiq tərəfindən aparılması məsələsinə baxmalıdır. Bu zaman kimin işi öz icraatına götürəcəyi və kimin ümumi fəaliyyətə rəhbərlik edəcəyi məsələsi düzgün həll edilməlidir. Müstəntiqin iş keyfiyyətlərinin, spesifik meyllərinin düzgün nəzərə alınması da iş üzrə istintaqın yüksək keyfiyyətini təmin edən amillərdəndir.

Müasir dövrdə artıq cinayət prosesinin ilkin mərhələsində ictimaiyyətlə geniş əlaqələr yaradılmasının da xüsusi əhəmiyyəti vardır. Prokuror törədilmiş cinayətlər, təqsirli bilinən şəxslər haqqında cəmiyyətə düzgün məlumat verilməsi üçün məsuliyyət daşıyır. İstintaq və təhqiqat orqanlarının bəzi işçilərinin ictimaiyyətə yoxlanılmamış faktlar ötürməsi yolverilməz haldır və kobud hüquq pozuntularına səbəb ola bilər.

Prokuror törədilmiş (və ya hazırlanan) cinayətlər üzrə daxil olan məlumatların qəbulu, baxılması və həll edilməsi təcrübəsini müntəzəm olaraq ümumiləşdirməlidir.

Cinayət haqqında vaxtında məlumat verilmədiyini, cinayət haqqında məlumatların vəzifəli şəxslər tərəfindən düzgün tərtib edilmədiyini müəyyən edən prokuror müvafiq göstərişlər verməli, süründürməçilikdə və digər qanun pozuntularında günahkar olanların məsuliyyətə cəlb olunması barədə məsələ qaldırmalı, cinayətlərin profilaktikası və qarşısının alınması üçün geniş iş aparmalıdır.

Bu ümumiləşdirmələr zamanı prokuror əsas diqqəti cinayət işi başlamaq hüququ olan orqanların cinayət əməlinin törədilməsi səbəbləri və şəraitinin müəyyən edib etməməsinə, onun qarşısının alınması üçün hansı tədbirlərin görüldüyünə yönəltməlidir.

Hüquqi, demokratik dövlət quruculuğu prosesinin getdiyi müasir dövrdə prokuror nəzarəti ibtidai istintaqda şəxsiyyətin hüquq və qanuni maraqlarının təmin edilməsinin mühüm vasitəsidir. Şəxsiyyətin hüquq və maraqlarının qorunması dövlətin də vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasına müvafiq olaraq, insan ən yüksək dəyərdir və onun hüquq və azadlıqları dövlət hakimiyyətinin bütün strukturları tərəfindən qorunmalıdır. Prokurorluğun fəaliyyətinin əsas məqsədi olan hüquq-mühafizə, qanunçuluğun qorunması funksiyası da məhz buna xidmət edir. Prokurorluğun hüquq-mühafizə fəaliyyəti cəmiyyətin qanunverici aktlarla tənzimlənən bütün sahələrini əhatə edir. Prokurorluğun fəaliyyətində ikili istiqamət təzahür edir; hər bir vətəndaşın hüquq və qanuni maraqlarının qorunması; dövlət və cəmiyyətin maraqlarının qorunması yolu ilə bütün vətəndaşların mühafizəsi. Prokuror hətta cinayət-mühakimə icraatında iştirak edərkən, ittiham irəli sürərkən belə, bu funksiyanı yerinə yetirir, yəni digər vətəndaşları cinayətlərdən qoruyur, eyni zamanda təqsirləndirilən şəxsin

hüquqlarının pozulmasının qarşısını alır.

Fiкrimizcə, mövcud cinayət-prosessual qanunvericiliк cinayət prosesinin ilкin mərhələsində nəzarət funкsiyalarının həyata кeçirilməsi üçün кifayət edəcəк qədər hüquqi baza yaratmır. Cinayət-prosessual qanunun proкuror nəzarəti haqqında ümumi qaydaları, cinayət işi başlama mərhələsində yaranan hüquq münasibətləri tənzimləyən xüsusi normalarda açılmır.

Bir qayda olaraq cinayət işi başlanması mərhələsinə proкuror nəzarətinə iкi aspeкtdən yanaşılır: 1) cinayətlər haqqında məlumatların qəbulu və qeydiyyatı zamanı qanunun və normativ aкtların tələblərinə əməl edilməsinin yoxlanılması; 2) cinayət işi başlama mərhələsində qəbul edilən qərarların qanuniliyinə və əsaslandırılmasına nəzarət.

Fiкrimizcə, cinayət prosesinin ilкin mərhələsində proкuror nəzarətinin rolunu bu cür anlaşılması кifayət deyildir. Laкin bu cür yanaşmanın müəyyən əsasları olduğunu da qeyd etməliyiк. Belə кi, şəxsiyyətin hüquq və maraqlarının pozulması hallarının əкsəriyyəti məhz cinayət haqqında məlumatların və qeydiyyatı, habelə cinayət işi başlama mərhələsində yeкun qərarlar qəbul edilməsi zamanı qeydə alınmışdır.

Bu səbəbdən, cinayət işi başlaması mərhələsində proкuror nəzarətinin predmetinə aşağıdaкıların aid edilməsini məqsədəuyğun hesab ediriк:

1) təhqiqat orqanları və müstəntiqlərin cinayət işinin başlanması məsələsini həll edərкən hərəкətləri (hərəкətsizliyi); 2) cinayət işi başlayarкən təhqiqat orqanlarının çıxardığı prosessual aкtlar; 3) cinayət işi başlama mərhələsində prosessual müddətlər; 4) cinayət işi başlama mərhələsində vətəndaşların hərəкətləri (hərəкətsizliyi); 5) cinayət işi başlayan təhqiqatçı və müstəntiqin hərəкət və qərarlarından şiкayətlər (25, 7).

Azərbaycan Respubliкası Cinayət – Prossesual Məcəlləsində cinayət işi başlama mərhələsində şəxsiyyətin hüquq və qanuni maraqlarının qorunması üzrə proкuror səlahiyyətləri xüsusi olaraq ayrılmır və yalnız təhqiqat və ibtidai istintaq orqanları tərəfindən qanunların icrasına nəzarət nəzərdə tutulur.

Hesab ediriк кi, cinayət – prosessual məcəlləsində cinayət işi başlanması mərhələsində proкurorun nəzarət səlahiyyətləri daha dəqiq reqlamentləşdirilməsi və aşağıdaкı formada verilməsi məqsədəuyğun olardı:

Cinayət işinin başlanması mərhələsində nəzarəti həyata кeçirən proкurorun səlahiyyətlərinə aid qeyd etməк olar кi, proкuror öncə olaraq cinayət işi başlanması mərhələsində qanunların icrasına, şəxsiyyətin hüquq və qanuni maraqlarının təmin olunmasına nəzarəti həyata кeçirir. Bu zaman o:

1) ayda bir dəfədən az olmayaraq törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların qəbulu, baxılması və həll edilməsi zamanı qanunun tələblərinə əməl edilməsini yoxlayır;
2) yoxlamaq üçün təhqiqat və ibtidai istintaq orqanlarından törədilmiş cinayətlər haqqında sənədlər, materialları və digər məlumatları tələb edir;
3) cinayətlər haqqında ərizə və məlumatların qeydiyyatına və onların

yoxlanması qaydalarına dair göstərişlər verir;
4) cinayətlər haqqında ərizə və məlumatların ilkin yoxlanmasında iştirak edir, zəruri hallarda prosessual hərəkətləri şəxsən həyata keçirir;
5) cinayətlər haqqında məlumatlara baxılması müddətlərini yoxlayır;
6) cinayət işi başlanması mərhələsində qəbul olunmuş qərarların qanuniliyi və əsaslandırılmasına nəzarəti həyata keçirir.

Cinayət-mühakimə icraatında prokuror nəzarətinin bir xüsusiyyəti də ondadır ki, cinayət prosesinin üzvi hissəsi olmaqla yanaşı müstəntiqin prosessual fəaliyyətinin bir növ üzərində durur, prokuror üçün ibtidai istintaq orqanlarının, cinayət prosesi iştirakçılarının yol verdikləri qanun pozuntularının qarşısının alınması, qanunçuluğun bərpa edilməsi imkanları yaradır.

Prokuror nəzarəti insan və vətəndaşın hüquq və azadlıqlarının qorunması üzrə qanunvericiliyi həyata keçirməkdə istintaq orqanlarına kömək etməli, eyni zamanda bu hüquq və azadlıqların qarantı kimi çıxış etməlidir.

Bu gün məhkəməyə qədərki icraatda prokuror nəzarəti haqqında birmənalı fikrin olmadığını nəzərə alan müəllif, hüquqi ədəbiyyatda irəli sürülən belə bir fikri əsaslı hesab edir: «eyni nəzarət funksiyalarını müxtəlif orqanların yerinə yetirməsinə ehtiyac yoxdur».

Eyni zamanda prokuror nəzarətini tam ləğv etməyə də lüzum yoxdur. Məhkəmə qərarı olmadan aparılan istintaq hərəkətlərinə münasibətdə bu nəzarət saxlanmalıdır. Habelə digər sırf praqmatik mülahizələri də nəzərə almaq lazımdır (26, 21).

Nəticə etibarı ilə qeyd olunanlarda aşağıdakı yenilikləri qeyd etmək olar:

-ibtidai araşdırmanın konkret başlanma vaxtının müasir qanunvericiliyə uyğun formada müqayisəli təhlili;

-cinayət işi başlama mərhələsinin xarakteristikasının verilməsi;

-cinayət işinin başlanması ilə əlaqədar prosessual məcburiyyət hərəkətlərinin icrası mexanizminin müəyyənləşdirilməsi;

-təhqiqatçı və ya müstəntiqin güman edilən cinayət barəsində hər bir məlumat üzrə istintaq hərəkətləri aparmaq zərurətinin müəyyənləş-dirilməsi;

-cinayət işinin başlanması mərhələsinin prosessual qaydalarının ətraflı şərhi;

-cinayət prosesinin ilk mərhələsində müvafiq hüquq-mühafizə orqanları arasında sıx qarşılıqlı əlaqələrin vacibliyinin əsaslandırılması;

-törədilmiş və hazırlanan cinayətlər barədə zəruri məlumatların daha sürətlə toplanılması, onun ictimai təhlükəlilik dərəcəsini düzgün müəyyən edilməsi, nəhayət, cinayət işi başlamaq haqqında əsaslandırılmış qərar qəbul etmək və bununla bağlı profilaktik tədbirlər görülməsi səlahiyyətlərinin müəyyənləşdirilməsi;

-cinayət prosesinin ilkin mərhələsində prokurorun prosessual vəziyyəti, cinayət işini onun özünün başlamasından və ya digər səlahiyyətli şəxslərin bu mərhələdəki fəaliyyətinə nəzarət etməsi səlahiyyətlərinin müəyyənləşdirilməsi kimi mühüm istiqamətləri əhatə edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında» fərmanı (Azərbaycan Respublikası Prezidentinin «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» 9 avqust 1994-cü il tarixli Fərmanı. «Hüquqi dövlət və qanun» jurnalı, 1994, №1.
2. Azərbaycan Respublikasının «Prokurorluq» haqqında Qanunu (Azərbaycan Respublikasının «Prokurorluq haqqında» 7.12.1999-cu il tarixli Qanunu (5 iyun 2002-ci ilədək edilmiş dəyişikliklər və əlavələrlə).
3. Плотников А. А. Использование полиграфа в раскрытии преступлений: лекция. – Хабаровск, 1996 г., 236 с.
4. Дорохов В.Я. «Ученые записки Пермского Государственного Университета», Т.10, 1955, вып. 4, стр.114-117.
5. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirinin 05. 07.2002-ci il tarixli əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikası milli təhlükəsizlik orqanlarında vətəndaşların müraciətlərinə baxılması qaydaları haqqında» təlimat.
6. Ковалев Н.А. Процессуальные вопросы прокурорского надзора в стадии возбуждения уголовного дела: Автореферат. дисс. на соиск. учен. степени канд. юрид. наук. М. 1974.
7. Azərbaycan Respublikasının «Polis haqqında» və «Əməliyyat-axtarış fəaliyyəti haqqında» 28.10.1999-cu il tarixli qanunları. «Hüquq ədəbiyyatı» nəşriyyatı, B.,1999.
8. Балашов А.Н. Прокурорский надзор за исполнением законов в процессе взаимодействия следователей и органов дознания. М.,1987.,322 с.
9. Жогин Н.В., Фаткуллин Ф.Н. Предварительное следствие в уголовном процессе. Изд. Юрид.литература, М.,1965., 296 с.
10. Баев О.Я. Содержание и формы криминалистической тактики. Воронеж, 1975. 321 с.
11. Долгова А.И. Формы прокурорского надзора. М., 1972., 256 с.
12. Смирнов А.В. Достаточность фактических оснований уголовно-процессуальных решений. // Правоведение. 1983, №5, с.80-86.{98, 162.}. Смирнов А.В. Достаточность фактических оснований уголовно-процессуальных решений. // Правоведение. 1983, №5, с.80-86.
13. Жогин Н.В. Прокурорский надзор за предварительным расследованием уголовных дел. Юрид.литература. М., 1972., 272 с.
14. Azərbaycan Respublikasının «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Qanunu (10.06.1987), B., 1997.
15. «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» Minsk və Avropa Konvensiyası. B.,1993, 24 s.
16. Уголовный процесс. Учебник для вузов (В.Н.Григорьев, А.Б.Победкин, В.И.Яицин). М., 2005., 265 с.
17. Кишиев А.Х. Дознание и предварительное следствие органов внутренних дел. Б., 1992., 276 с.
18. «Azərbaycan Respublikası Cinayət Prossessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının Qanunu və həmin qanunla təsdiq edilmiş «Azərbaycan Respublikası Cinayət Prossessual Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikasının 25 avqust 2000-ci il tarixli Fərmanı.
19. Прокурорский надзор в Российской Федерации. Учебник (под редакцией А.А.Чувилева), М., 2000. 212 с.

20. Энциклопедия преступлений и катастроф. Наркотические средства и психотропные вещества. – М., 1998 г., 270 с.
21. Azərbaycan Respublikası Baş prokurorunun «Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin, ibtidai istintaq və təhqiqat üzərində nəzarətinin daha da gücləndirilməsi haqqında» 09.02.2001-ci il tarixli 02/47 №li əmri.
22. Шундиков В.Д. Принцип непосредственности в стадии возбуждения уголовного дела и задачи прокурорского надзора. Москва, 1977, 101 с.
23. İsmayılov R.Ə. İbtidai istintaqda müqəssir və onun prosessual hüquqları. B., 1965.
24. Дубинский А.Я. Прекращение уголовного дела в стадии дознания и предварительного следствия. Автореферат кандитата юридических наук. Киев, 1971.
25. Национальная энциклопедия полиции. – Париж, 1955 г. 670 с.

## ВОПРОСЫ КОНТРОЛЯ ПРОКУРОРОМ, ОСУЩЕСТВЛЯЮЩИМ ПРОЦЕССУАЛЬНОЕ РУКОВОДСТВО ПРЕДВАРИТЕЛЬНЫМ РАССЛЕДОВАНИЕМ В СВЯЗИ С НАЧАЛОМ УГОЛОВНОГО ДЕЛА

**А.А.КАСУМОВ**

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы первичных этапов расследования уголовного преступления. Анализируются проблемы возбуждения уголовного дела, значение и задачи первичного процесса уголовного преследования, их отличие от других этапов и т.д. Проанализированы теоретические вопросы об органах, юридических и должностных лицах, имеющих право начать уголовное дело, их место и роль в процессе первичной стадии возбуждения уголовного дела. А также рассмотрены значение и задачи процессуального руководства прокурором на первичном этапе начала уголовного дела, вопросы компетенции прокурора в этом процессе, наряду с другими компетентными и должностными лицами, имеющими право начать уголовное дело и контроль прокурора за ходом этого действия, рассмотрены вопросы соответствия новых законодательных и нормативных актов, касающихся задач и принципов деятельности прокуратуры в процессе возбуждения уголовного дела, возможности контролировать эти действия к реальностям.